# Təhsil müəssisələrinin adlarının dəyişdirilməsi barədə

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 14 may tarixli 67 nömrəli qərarı ilə təsdiq edilmiş "Büdcədən maliyyələşən təlim-tərbiyə və təhsil müəssisələrinin yaradılması, genişləndirilməsi, yenidən təşkili və ləğv edilməsi Qaydaları"nın 4-cü bəndinə əsasən, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 iyun 2016-cı il tarixli 17/17/1718-11 nömrəli razılığını və "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci maddəsini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Aşağıda adları qeyd olunan təhsil müəssisələrinin adları yeni redaksiyada verilsin:

1. Sumqayıt şəhər Fars-ingilis təmayüllü orta internat məktəbi - Sumqayıt şəhər internat tipli gimnaziya
2. Sumqayıt şəhər general M.Əsədov adına Tam orta internat məktəbi - Sumqayıt şəhəri general M.Əsədov adına İnteqrasiya təlimli internat tipli gimnaziya
3. Sumqayıt şəhər sağlamlıq imkanları məhdud uşaqlar üçün Xüsusi internat məktəbi - Sumqayıt şəhər İnteqrasiya təlimli internat tipli gimnaziya
4. Gəncə şəhər Sanatoriya tipli internat məktəbi - Gəncə şəhər İnteqrasiya təlimli internat tipli gimnaziya
5. Goranboy şəhər R.Ağakişiyev adına Ümumi orta internat məktəbi - Goranboy şəhər R.Ağakişiyev adına İnteqrasiya təlimli internat tipli gimnaziya
6. Zaqatala şəhər İnternat məktəbi - Zaqatala şəhər İnteqrasiya təlimli internat tipli gimnaziya
7. Salyan şəhər A.Səfərov adına Ümumi orta internat məktəbi - Salyan şəhər A.Səfərov adına İnteqrasiya təlimli internat tipli gimnaziya
8. Siyəzən şəhər Ümumi orta internat məktəbi - Siyəzən şəhər İnteqrasiya təlimli internat tipli gimnaziya
9. Balakən rayonu Ümumi orta internat məktəbi - Balakən rayonu İnteqrasiya təlimli internat tipli gimnaziya
10. Mingəçevir şəhər Tam orta internat məktəbi - Mingəçevir şəhər İnteqrasiya təlimli internat tipli gimnaziya
11. Neftçala şəhər M.Səfərov adına İnternat məktəbi - Neftçala şəhər M.Səfərov adına İnteqrasiya təlimli internat tipli gimnaziya
12. Lerik şəhər V.İbrahimov adına Tam orta internat məktəbi - Lerik şəhər V.İbrahimov adına İnteqrasiya təlimli internat tipli gimnaziya
13. Lənkəran şəhər sağlamlıq imkanları məhdud uşaqlar üçün Xüsusi internat məktəbi - Lənkəran şəhər İnteqrasiya təlimli internat tipli gimnaziya
14. Göyçay şəhər S.Vurğun adına Tam orta internat məktəbi - Göyçay şəhər S.Vurğun adına İnteqrasiya təlimli internat tipli gimnaziya
15. Tovuz rayonu Qovlar şəhər Qarışıq tipli tam orta internat məktəbi - Tovuz rayonu Qovlar şəhər İnteqrasiya təlimli internat tipli gimnaziya
16. Şəki şəhər Qarışıq tipli internat məktəbi - Şəki şəhər İnteqrasiya təlimli internat tipli gimnaziya
17. Bərdə şəhər R.N.Musayev adına (inklüziv komponentli) günüuzadılmış ümumtəhsil orta məktəbi - Bərdə şəhər R.N.Musayev adına İnteqrasiya təlimli internat tipli gimnaziya.

**2.** Hüquq şöbəsinə (S.Kazımov) və De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsinə (M.Hacıyeva) tapşırılsın ki, qeyd olunan müəssisələrin adlarının dəyişdirilməsi ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda dəyişiklik edilməsi üçün 5 (beş) gün müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinə müraciət edilsin.

**3.** Yuxarıda adları göstərilən müəssisə rəhbərlərinə tapşırılsın ki, müəssisənin yeni adına uyğun Nizamnaməsinin müəyyən olunmuş qaydalar üzrə aidiyyəti dövlət orqanında qeydiyyatdan keçirilməsini, möhür və ştampın hazırlanmasını təmin etsinlər.

**4.** İnformasiya şöbəsi (E.Əliyev) bu əmrin "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını, Nazirliyin internet saytında yerləşdirilməsini və bu əmrin 1-ci bəndində qeyd olunan müəssisələrə çatdırılmasını təmin etsin.

**5.** Əmrin icrasına nəzarət Aparat rəhbərinə (M.Eynullayev) həvalə olunsun.

**Mikayıl CABBAROV,**
**Azərbaycan Respublikasının**
**təhsil naziri**

*28 iyul 2016-cı il*